

Nağıl vaxtı

# LEYLƏK VƏ QARĞA

*(Avstraliya nağılı)*

Leylək və qarğanın adam kimi yaşadıqları vaxt Leylək Qarğanı evinə qonaq çağırdı, dedi ki, çoxlu balıq tutmuşam, axşam bizə gələrsən, birlikdə şam edərik.

Qarğa razılaşdı. Ürəyində fikirləşdi ki, Leylək kimi dostu olmaq xoşbəxtlikdi. Axşamtərəfi o, çantasını və daşdan düzəltdiyi baltasını götürüb Leyləyə qonaq gedəndə gördü ki, bir ağacın gövdəsində arı yuvası var. Öz-özünə düşündü ki, əvvəlcə bal yeyim, sonra balıq yeyərik.

O, balta ilə koğüşü bir az da vurub genəltdi və əlini uzadıb balın şanını çıxardı. Acgözlüklə hamısını yedi. Leylək üçün bircə damcı da saxlamaq fikrinə düşmədi.

Leylək qızartdığı balıqları süfrəyə qoydu. Qarğa acgözlüklə yeməyə başladı. Birdən Leylək onun üstünə bulaşmış balı və ona yapışmış arı gördü. O saat başa düşdü ki, dostu ondan xəbərsiz bal yeyib. Leylək dostunu yüngülcə məzəmmət eləyəndə Qarğa ona dedi:

-Əlvida, Leylək. Mən uçub öz yuvama qayıdıram.

Qarğa bu sözləri deyib arxasına da baxmadan uçub getdi. O, dağların sıldırımlı yamacındakı bir mağarada yuva qurmuşdu. Aşağıda isə çoxlu qu quşlarının üzdüyü gözəl bir göl görünürdü. Qu quşları gölün ətrafında yuva qurmuşdular. Qarğa çoxlu qu yumurtası daşıyıb öz yaşadığı mağaraya gətirdi. Sonra qərara gəldi ki, Leyləyi qonaq çağırsın. O, Leyləyə belə bir dəvətnamə yazıb göndərdi: “Mənim yuvamda çoxlu qu quşu yumurtası var. Gəl, səni dadlı yumurtaya qonaq eləyim”.

Dəvətnaməni alan Leylək fikirləşdi, fikirləşdi və qərara gəlki, qonaqlığa getsin.

Leylək uçub Qarğanın yaşadığı yerə ətdi. Qarğa onu görən kimi sevinclə lləndi:

-Xoş gəlmisən, əziz dost, gör sənin çün nə qədər yumurta toplamışam?

Qarğa ocaq qalayıb yumurtaları bişirəyə başladı.

-Gəl yanımda əyləş, bura çox rahatdır.

Leylək Qarğanın yanında əyləşib, tahla yumurta yeməyə başladı. Qarğa rdən Leyləyin tüklərinə yapışmış bir əçə yaşıl qarışqa gördü:

-Aha, deməli, sən yaşıl qarışqaları ənləyirsən. İndi mənim yumurtalarımı arab eləyəcəksən. Axı sən yaşıl qarışqa əmisən. Kim yaşıl qarışqa yeyibsə ona umurta yemək olmaz.

Bu sözləri eşidən Leylək incidi:

-Hə, deməli belə! Onda salamat qal!

-Yaxşı yol!

Bax, elə həmin vaxtdan Qarğa ilə Leyləyi bir yerdə görə bilməzsən.

*Tərcümə edib işləyəni R.Y.Əliyev*

Rəssam İlqar

